*Rəhilə KƏSƏMƏNLİ*

# ƏZİZ MİRƏHMƏDOV MƏTBUAT TARİXİNİN TƏDQİQATÇISI KİMİ

## РЕЗЮМЕ

Азербайджанская пресса это один богатый клад. И свободная история государства, или же история народный прессы до этих времен не было изучена, пристрастно комментированные страницы постепенно раскрываются, забытые личности обнаруживаются. Это конечно большая полезная работа в изучении и в исследовании Азербайджанского издательства. Потому что очень важно пользоваться опытами этих личностей, которые занимались социально – политической, художественно – литературной деятельностью.

***Ключевые слова:*** Азербайджанская пресса, исследование прессы в истории Азербайджан, история прессы, исследование, следователь

## SUMMARY

Azerbaijan press is rich treasury. Both the history of independent statehood or the national press this time was not learnt, preconceived commented pages are opened gradually, our forgotten personalities are revealed. This of course is very useful affair in the learning and researching Azerbaijan press.

Because it is very important to benefit from the experience of the personalities being engaged with social-political, literary and artistic activities.

***Key words:*** Azerbaijan press, investigation of the press's history of Azerbaijan, the history of the press, research, researcher

Zəngin yaradıcılıqların hələ bir çoxu açılmamış, öyrənilməmiş olaraq qalmaqdadır. Bunun da səbəbi aydındır ki, Sovet ideologiyasının təsiri nəticəsində olmuşdur. Bu dövrdə Azərbaycan tarixi (xüsusən də Azərbaycan Xalq Cümhuriyyəti tarixi) tamamilə tədqiqatlardan uzaq qalmış, ya da təmiz şəkildə təhrif olunmuşdur. Bu səbəbdəndir ki, yaradıcı dahilər, xalq fədailəri öyrənilməmiş qalmışlar. Onların çoxu ya arxiv sənədlərində gizli saxlanılmış, ya da ki məhv edilmişdir. Bir çox dahilər isə ölkəni tərk etmək məcburiyyətində qalmışlardı. Bununla belə həmin dahilərin yaradıcılıqları da yaşadığı ölkələrin arxivlərində saxlanılmış, bəzən isə həmin ölkələrin tədqiqatçıları tərəfindən zamanla öyrənilmişdir (Türkiyə, Polşa). Məhz o dövr ziyalılarımızın əməyinin məhsuludur ki, bu gün Azərbaycanda ziyalı təbəqəsi yetişir.

Azərbaycan mətbuatı zəngin bir xəzinədir. Zaman-zaman bu xəzinə bolşeviklər tərəfindən talanıldı, gizlədildi, həqiqətlərdən uzaq qaldı. Lakin hazırda tədqiqata geniş ehtiyacı var və bu ənənə davam etməkdədir. Çünki Azərbaycan mətbuatının böyük hissəsi öyrənilməmiş qalmaqdadır. Buna baxmayaraq milli ideologiyanın baniləri məhz bu ədiblərdir.

Azərbaycan milli mətbuatı tarixi xalqımız üçün iki istiqamətdən böyük səmərə vermişdir. 1. Bu dövrdə inkişaf edən mətbuat demokratik dəyərlərə yiyələnmək işində xalqa yardımçı olmuş; 2. Mətbuat bu illər ərzində milli-mənəvi dəyərlərimizi qorumaq, artırmaq yolunda misilsiz iş görmüşdür. "Azərbaycan türklüyünün ictimai-mədəni intibaha başlayıb tərəqqi etməsində ən qüvvətli amillərdən birini mətbuat təşkil etmişdir". "Mətbuatın rolu çox böyük və əhəmiyyətlidir. Mətbuat mühüm milli qüvvələrdən biridir. O, milli iqtidarda dördüncü yerdə durur". [1]

Azərbaycan mətbuatı yarandığı gündən beynəlxalq təcrübəyə söykənərək, istiqlal yolunda, milli dirçəliş yolunda çox böyük vəzifələri yerinə yetirmişdir. Mühüm ictimai institut olan mətbuatın funksiyalarını düzgün qiymətləndirmək təkcə elmə deyil, habelə cəmiyyətə böyük səmərə verir. M.Ə.Rəsulzadə hələ 1911-ci ildə yazdığı bir məqaləsində göstərirdi: "Mətbuatın rolunu, vəzifəsinin əhəmiyyətini öyrənmək üçün onun tarixini nəzərdən keçirmək lazımdır". [3]

Həqiqətən də mətbuatın keçdiyi yol xalqımızın son iki əsrdə keçdiyi mədəniyyət, ictimai-siyasi, politoloji yoldur. Bu tarix şərəfli və qiymətlidir. Bu tarixi yolun inkişaf istiqamətləri xalqımızın ümummilli lideri H.Əliyevin 27 mart 2000-ci ildə imzaladığı "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" prezident fərmanında elmi şəkildə ifadə edilmişdir: "Azərbaycanın ictimai həyatının ən mühüm hadisələrindən biri olan milli mətbuatın formalaşması XIX əsrin ortalarına təsadüf edir. Azərbaycan və eləcə də bütün Şərq aləmi üçün tamamilə yeni siyasi, mədəni və elmi ünsiyyət vasitəsi

olan mətbuatın yaranması əslində ölkədə gedən mühüm ictimai-siyasi, iqtisadi və mədəni proseslərlə, o cümlədən maarifçilik hərəkatının, dünyəvi teatrın və yeni tipli məktəbin təşəkkül tapması ilə sıx bağlıdır". [1]

Xalqın, cəmiyyətin taleyüklü problemlərinin həllində bu qədər böyük vəzifələri yerinə yetirmiş və yetirməkdə olan mətbuatın tarixi həmişə elmi ictimaiyyətin, tədqiqatçılıqla vətəndaşlığı birləşdirən insanların diqqət mərkəzində olub. Qeyd etmək yerinə düşər ki, mətbuat tarixinə dair ilk elmi-publisist əsərin müəllifi də elə ilk milli qəzetimizin banisi H.B.Zərdabi olmuşdur. "Əkinçi"də dərc olunan yazılarda jurnalistikanın nəzəri əsaslarının ilk rüşeymləri vardır. H.B.Zərdabi sonralar qələmə aldığı "Rusiyada əvvəlinci türk qəzetəsi" məqaləsində "Əkinçi" qəzetinin nəşri tarixini aydın şəkildə tədqiq etmişdir. "Molla Nəsrəddin" jurnalının yaradıcıları və əməkdaşları olan C.Məmmədquluzadə, Ə.Nəzmi, Ö.F.Nemanzadə, Ü.Hacıbəyli və s. kimi ədiblərin mətbuat və onun tarixi inkişaf yolu haqqında maraqlı məqalələri var. Sovet dövründə Azərbaycan mətbuatının tarixi xeyli dərəcədə öyrənilmişdir. Azərbaycan tədqiqatçıları sırasında xüsusi yeri olan F.Hüseynov, Ş.Hüseynov, İ.Həbibbəyli, N.Axundov, S.Əliyev, N.Bağırov, M.Mehdiyev, Ş.Vəliyev, O.Bayramova, X.Məmmədov və bir çox başqaları mətbuat tarixinə dair qiymətli araşdırmalar aparmışlar. Bu sırada Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Əziz Mirəhmədovun ayrıca yeri vardır. Biz bu məqalədə də böyük tədqiqatçı alimin mətbuat tarixinə dair araşdırmalarına diqqət yetirəcəyik.

Əziz Mirəhmədov, hər şeydən əvvəl "milli ədəbiyyatşünaslıq elminin inkişafında xüsusi yer tutan simalardan biridir". 17 sanballı kitabın, 400-dən artıq elmi, ədəbi-tənqidi və publisist məqalənin müəllifidir. Onun özü ədəbi-tənqidi və publisistik məqalələrinin müəllifidir. Ə.Mirəhmədovun tədqiqatçılıq fəaliyyəti barədə 150-ə yaxın elmi əsər yazılmışdır.

Ə.Mirəhmədovun elmi-tədqiqatçılıq fəaliyyətində onun mətbuat tarixinə və ayrı-ayrı klassik publisistlərə dair yazıları da çox mühüm yer tutur. Azərbaycan mətbuatının "Molla Nəsrəddin" jurnalı kimi böyük ədəbi abidəsi və bu abidənin yaradıcısı Cəlil Məmmədquluzadə yaradıcılığı alimin tədqiqatlarında özünün yüksək ifadəsini tapmışdır. O, "Molla Nəsrəddin"ın mətbuat tarixində yerini müəyyənləşdirərək mollanəsrəddinçilərin və "Molla Nəsrəddin" məktəbinin aparıcı simalarını tədqiqata cəlb etmişdir.

Tədqiqatçıların da qeyd etdiyi kimi onun sanballı əsəri "Azərbaycanın Molla Nəsrəddini" kitabıdır. İlk baxışdan elə görünə bilər ki, bu əsər ancaq "Molla Nəsrəddin" jurnalı və molla nəsrəddinçilər barədədir. Lakin heç də belə deyil. Bu əsər öz mahiyyətində Cəlil Məmmədquluzadənin dünyagörüşü və yaradıcılığının təhlilini daşısa da, müəllif XIX əsrin sonu, XX əsrin başlanğıcında Azərbaycanın ictimai-siyasi, ədəbi-bədii vəziyyətinin təhlilini də qarşıya qoymuşdur.

Ə.Mirəhmədov əsərin müqəddiməsindən vəd edir ki, bu kitab çox geniş tədqiqatı öz öhdəsinə götürmüşdür. "Kitab müəllifin iyirmi ilədək müddətdə

XIX-XX əsrlər Azərbaycan ədəbiyyatı və mətbuatını, xüsusilə "Molla Nəsrəddin" jurnalı, Məmmədquluzadə və Sabiri öyrənmək sahəsində" ömür sərf etmiş insanın tədqiqat əsəridir. "Molla Nəsrəddin" jurnalının 1988-ci ildən başlayan təkrar nəşrinin I cildinə "Azərbaycan mənəvi mədəniyyətinin böyük abidəsi" adlı giriş sözünün özü də böyük və ciddi bir tədqiqatın materialıdır.

Ə.Mirəhmədov "Azərbaycan ədəbiyyatı tarixi"nin üç cildliyində mətbuat tariximizə dair tədqiqat-xülasənin də müəllifidir. Məşhur publisist Ə.Hüseynzadə haqqında sovet dövründə ilk oçerkin müəllifidir. Eyni zamanda sovet dövründə adının çəkilməsi qadağan edilən Ə.Ağayev haqqında müfəssəl elmi oçerkin müəllifi də Ə.Mirəhmədovdur. Onun H.Zərdabi, Ünsizadə qardaşları, Ü.Hacıbəyov, M.Ə.Sabir və s. ədiblər və publisistlər haqqında çoxsaylı kitabları və məqalələri vardır. Məsələn, həyatı və yaradıcılığı geniş oxucu kütləsinə az məlum olan Eynəli bəy Sultanov kimi ziyalılar onun tədqiqat obyekti olmuşdur. Molla nəsrəddinçi İsmayıl Həqqi barədə məqaləsini də eyni cür qiymətləndirmək olar.

Lakin bütün bunlarla belə Ə.Mirəhmədovun mətbuat ətrafında tədqiqatlarının ən böyük hissəsi "Molla Nəsrəddin" və Molla Nəsrəddinçilərlə bağlıdır. Bu jurnalla bağlı tədqiqatları Ə.Mirəhmədovu təkcə böyük alim və tədqiqatçı kimi deyil, həm də böyük vətəndaş kimi qiymətləndirməyə əsas verir.

## ƏDƏBİYYAT


1. Azərbaycan mətbuatı tarixi antalogiyası I cild. Bakı, 2010
2. Azərbaycan mətbuatı tarixi antalogiyası II cild. Bakı, 2011
3. Hüseynov Ş. Mənəvi irsimiz və gerçəklik. Bakı 2004